# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



İyul 2024 il 2 say 19

## BU SAYIMIZDA

Ayhan Haceroğlu/ Yoktu / 3
Zərəngiz Dəmirçi Qayalı / Dünya Mənim Evim / 4
Bənövşə Mahmudqızı / Aşk Kadın / 5
Ayşe Ünüvar / Üç Zaman / 6
Təranə Məhəmmədqızı/ Paramparça / 7
Nurkan Gökdemir / Cevap / Sır / 8
Meryem Küçük / Sevmeyi Buyurmuş Gözlerin / 9
Zemfira Məhərrəmli / On İki Yaşın Sevinci / 10
Zeynep Keskin / Güne Dair 11
Banu Musayeva / Sən / 12
İnci Okumuş / Göğün ve Kalbin Söylemleri / 13
Sündüs Arslan Akça / Sesin Kaynağı / 14
Lütviyyə Əsgərzadə / Kiçik Dünyanin Böyük Həqiqətləri / 15
Sona İntizar / Anladım Bugün / 20
Nihâl Mirdoğan / Türk Evladı / 21
**Tamella Şuşalı** / İstərəm / 22
Eluca Atali / Özümə Həsrət / 23
Fatma Özger Bilgiç / Kendini Toparla / 24

**TÜRKAY**
**aylıq ədəbiyyat dərgisi**
**Baş Redaktor** Lütviyyə Əsgərzadə
**Məsul Katib** Meryem Küçük
**Üz Qabıqı Şekli** Niyazi Çapa
**E mail** dergiturkay@gmail.com
**İyul 2024 il 2 say 189**

## Ayhan Haceroğlu

# Yoktu

Gittin sen hicrana bıraktın beni
Yüreğim en derin yerinden koptu.
Gözümde yaşlarım anlatır beni
Hali ahvalimi bir soran yoktu.

Icimi yaktın, yaktın sen bizi
Dağları taşları gezdim denizi
Gözlerim nöbete arar hep sizi
Şimdi benden senden bir eser yoktu.

Sen ettin hiç beni, sen ettin heder
Bir sevdin yalandan, bin verdin keder.
Seni kara Toprak, bense derbeder
Eski halimizden bir eser yoktu.

Üzüldüm ağladım boşu boşuna
Gel yapma al beni gönül arşına
Bu sevda büyüdü girdi yaşına.
Bahtına taht kuran, hiç kimse yoktu.

Aş yoldaşına belin bağlama
Geçene mazı derler durup ağlama
On dostun varsa , biri sağlama
Şu fani dünyanın vicdanı yoktu.

Aldı benden seni ölüm meleği
Tersine çevirdi çarkı feleği
Boşuna yakmıştım mumu dileği
Musalla taşının amanı yoktu.

## Zərəngiz Dəmirçi Qayalı

# Dünya Mənim Evim

Dağlarımda qara güvən,
Könül, haqqa,yara güvən,
İstəyən dostlara güvən,
Olmasın fırtınam, devim!
Dünya mənim evim, evim!

Umub-küsüb heç olmuşam,
Xırdalanıb, puç olmuşam!
Qapısından qovulmuşam,
Xərcliyinə həsrət çibim!
Dünya mənim evim, evim!

Alışmışam alovunda,
Çırpınmışam tilovunda!
Ömrüm boyu qaç-qovunda,
Haqqım var, sevilim-sevim!
Dünya mənim evim, evim!

**Zərəngiz** haqdan gəlibdir,
O, ulu bağdan gəlibdir,
Verən Allahdan gəlibdir,
Zövqümlə bəzənər, təbim!
Dünya mənim evim, evim!

Bənövşə Mahmudqızı

# Aşk Kadın

Masal gibi ilişkiler yaşadım...
Ben kimsenin
peşinden koşmadım,
Zor kadındım...
Zor severdim...
Ama sevince,
Sevdiğim adamı
Sarardım sevince.
Ağladım, ağlatdım,
Yıprandım, yıpratdım.
Ama...
Unutulmazdım.
Hatırlıyorum ilk aşkımı,
Beklemeden karşılık
Sarhoşluk aşk karışık
Hiç bir zaman
Sevgilim olmadan
Sevdiyim olan adam...
Sonra ikinci büyük aşkım
Mutlu ola bilirim, sanmıştım.
Evet, yanılmıştım!
Bu iki adama olan aşkım
Beni etdi aşk kadın.
Hep aşık oldular,
Hep aşk doldular...
Göz yaşı ve şiir,
Haykırış ve şarkı,
Kiminin nefreti, ahı,
Kimin sevabı, günahı.
Hep bir şeyler oldular,
Aşk doldular,
Aşık oldular.
Ama ben...
Aşk kadın oldum da,
Aşık kadın olamıyorum...
Savunuyorum,
Aşktan değil de,
Aşık adamlardan.
Beklentisiz sevmek güzel.
Beklentisiz aşk zaten özel.
Masal gibi ilişkiler yaşadım.
Aslında...
O masalları ben yaratdım,
Onların aşklarını bile,
Ben yaşatdım.
Savunuyorum dedim,
Şimdi de öyle.
Pişman değilim.
Onlara da düşman değilim.
Onlar aşık adamlar,
Hem de aşkı yaşayamayanlar.
Bu ne demek?
Her şey doğru yapılmalı,
İnsan bile doğru sevilmeli.
Sevemediler...
Çünki doğru nedir,
Bilemediler.
Her defasında söyletdiler;
Elveda, elveda, elveda!

Ayşe Ünüvar

# Üç Zaman (hekayə)

Filbahri çiçeklerinin süslediği yola saptı. Düşünceden düşünceye koşuşturan zihnini kontrol edemiyor, rastladıklarına bakmıyor, nedenini bilmediği bir öfkeyle yukarıya doğru yürüyor, hiç gelmediği bu sokağın çakıl taşlarına takıldıkça öfkesi kabarıyordu. Onu buraya, hatta bu zamana çağıran neydi? Yüksek, kalın bir telin çevrelediği bahçe ile çevreyolunun ortasında kalan bu tali yol, oldukça sapa ve tenhaydı! Daha doğrusu git gide tenhalaştı, değişti ve insanlar kayboldu. Şeyler de… Şeyler kaybolunca neye sinirlenecekti ki insan? Öfkesini neyden çıkaracaktı? Taşlar azaldı. Yol, tepelik bir yere sarmaya, filbahrilerin yerini sık ağaçlar almaya başladı… Bu koku, limoni koku, filbahrilerden yükseliyor ve git gide azalıyordu…

Çocukluğunda teyzelerine gittiği zamanlar gelip çattı aklına! Ne istenmez bir çocuktu. Ana yarılarının çocukları bile onunla yakan top oynamaya yanaşmaz, kendi başına oturmasını isterlerdi… Hep oyun dışı kalırdı. Oyuna katılmadığından ya da oynayamadığından değildi bu! Buz gibi istenmez bir çocuktu! Ne oyunda çocuklarca ne de hayatta büyüklerce! İstenmez bir kimlik geliştirdi kendine ve bunu istemeye istemeye yaptı. Etrafındakilerin ondan beklentisi buydu işte! Peki değişen ne vardı? Sınıf arkadaşları da ondan uzak duruyorlar, zamanın tüm suçunu omuzlarında hissettiriyorlardı ona! Varmadan yürünmez miydi? İlla ki bir yerlere bir şeylere bir zamana bir hikâyeye bir kapıya bir kalbe varmak mı gerekti? Vardığı yerlerde ne bulmuştu? Annesinin bakışlarını hatırladı ve öfkesini ve olmazları ve sevdiği kızı! Ne demişti kız? "Senin aile yapın annemi endişelendiriyormuş!" Endişe! Anne! Aile yapısı! Endişesiz bir kadın annesi. Oğluna bir şey olacak diye hiç endişe duyduğunu fark etmedi mesela! Hatta okul gecesi olduğunu bildikleri halde ne annesi ne de babası hiç aldırış etmemiş, geceye sevdiği kızla küs, beyaz bir gömleğin üzerine taktığı kırmızı papyonla gitmişti. Kırmızı papyonu geçen yıl okul korosunda her erkek öğrencinin taktığı biliniyordu ve papyon okul idaresi tarafından temin edilmişti… Susmuş, içine atmış, kızın dediklerini düşünüp durmuş ve gece boyunca onunla hiç göz göze gelmemişti…

Endişelenen bir annenin endişeli kızının endişesi buz gibi haklıydı… Anne başka bir adamla, baba başka bir kadınla yeniden evlendiğinden beri o pansiyon senin bu yurt benim geziyor, sonra da "senin işin öğrencilik, ye iç çalış" Deniliyordu… İnsanın canı annesine sarılmak istemez miydi? Ya da babasıyla spor yapmak, iki çift laf etmek, okuduğu okuldan, istediği meslekten bahsetmek, âşık olduğu kızı anlatmak, erkek erkeğe dertleşmek… Ya da okul faaliyetlerinde alkış tutacak ebeveynler, aldığı tüm başarı ve onur belgelerini onlarla paylaşmak…

Uzun zaman olmuş, bu gidişata alışmış, anne babasının yeni ailelerinin dertlerini dinlemeye bile başlamıştı. Baba, kendi evlatlarından dert yanarken, anne de boş durmuyor, saçını çocuklarına süpürge edip tez yaşlandığından bahsediyordu… Peki O' kimin çocuğuydu? Endişeyi boş ver, annesi onun yaptıklarından dert yansa güzel olmaz mıydı? "Annem, benden bıkmış" Diye anlatıp, dert yanabilmek bile, anneden söz etmek, onu anmak, onunla birlikte geçirilen zaman demekti…

Zaman öylesine eriyip gidiyordu ve onun için üç zaman vardı… Üç kendini bilmez, onu unutmaz zaman! Kendi olduğu-kendi olamadığı ve kendisiyle baş başa kaldığı zaman! Ne annesinin ne de babasının yanına vardığında kendisi değildi! Sadece, sevdiği kızın yanında kendisi olmayı başarmıştı. O da geçip gitmişti işte. Yetmemişti. Yetememişti! Kızın annesine "endişe" ettiriyordu bu çocuk! Öyle ya başı bozuk bir ailenin, oğlu da başı bozuk olurdu. Kadın buz gibi haklıydı. Annesi de buz gibi haklıydı; "Çok sık gelip gitme, kocamın gönlü olmuyor, çocukların da" Demişti. Desindi ama öyle bakmasındı. Nasıl bakmıştı; sen de kimsin? Der gibi. Nereden çıktın? Der gibi. Hatasın sen! Der gibi. O adamın dölü değil misin?

Der gibi… Buz gibi hataydı bu oğlan. Babası için de annesi için de üvey babası ile üvey annesi için de… Aslında onlara anne ya da baba diye hiç seslenmemişti…

Birden bir şimşek çaktı zihninde ve olduğu yere oturuverdi. Sık çam ağaçları vardı ve artık filbahriler kokmuyordu! Şimşek! Ellerini yüzüne kapadı ve yere uzandı. Nemli çayırların üzerine. Annesine anne, babasına da baba demiş miydi? Ya da bunları en son ne zaman demişti? Hatırlayamadı. Hatırlamak biraz ölmek demekti. Hatırlayamamak da…

Doğruldu. Başı çatlayacak gibi ağrıyordu. Bağdaş kurup ötelere baktı. Buraya hangi yoldan gelmişti? Buraya gelirken nereye gidiyorum diye çıkmıştı? Gökyüzünde gezinen bulutlarda anlam aradı. Çizdi. Yazdı. Bozdu.  Kendince dövdü, sövdü! Uğurladı sonra bulutları… Güneş açtı. Çimenlerin nemini aldı uzağa götürdü sıcak! Endişelendi gökyüzü için, filbahriler için sevdiği kız için! Ne kadar yazık dedi içinden. Ne kadar yazık ki bir daha böyle sevilmeyecek!  Saf ve beklentisiz! Ayağa kalktı ve geldiği yolu yürümeye başladı. Ne tepelik vardı ne çam ağaçları ne de filbahriler! Ayağına batıp acı veren, öfkesini kökleyen çakıllar bile kaybolmuştu…

Annesi, babası ve diğerleri. Onlar da kaybolmuştu. Bu hayatta sadece kendisi vardı artık! Uyandı! Pencereyi açtı. Uzaklarda kararan dağları, tellere tüneyen güvercinleri, damlaları tutan çam ağaçlarını gördü. Nemli, taze kokuyu içine çekti. Yağmur gece boyu yağmış her şeyi ama her şeyi yıkamıştı. Ne bir öfke duydu ne de rüyasını hatırladı. İçinde derin, duru, samimi bir huzur vardı ve bu bulduğu yeni hale sımsıkı sarıldı. Yurt odasının penceresini kapatıp kahvaltıya indi. Her yer filbahri kokusuyla dolup taşıyordu. Tabağını alıp masaya oturduğunda, görevli kadının tüm masalara filbahri ısladığını gördü… Pencereden, uzaktaki dağlara bakıp, içindeki umuda sımsıkı sarılırken, yağmurdan sonraki duman şehri terk ediyor, kendisiyle baş başa kalacağı üçüncü zaman yeni başlıyordu…

## Təranə Məhəmmədqızı

## Paramparça

Qırılıb tale  güzgüsü,
Ona baxan param-parça.
Qəlb sinədə bir şüşədir,
Sinə, yaxa param-parça.

Partlayıbdır şah damarlar,
Çatlayıbdır sərt poladlar.
Qan verir köhnə yaralar,
Qılınç-qalxan paramparça.

Qapı bağlı, ocaq sönük,
Aralıqda divar hörük.
Millətə bax, bölük-bölük,
Ana torpaq param-parça.

## Nurkan Gökdemir

# Cevap / Sır

Evet sen!
başından beri
yalnız ben'i seçtin
kim kime oyunu'nda

ve böylece
benden uz düştün
ve güzel biz'den
geri dönüşsüz
yıpratıcı yaban
koca bir gururla!..

cüz'lere böldün biz'i
bilmeden/ hoyratça!
uz düştün nasıl da
masum duru öz'den

o hergün baktığın
ayrıksı dev aynan!
yalandı/ baştan sona
her görüş anı tekrarlı
biçare kibirle çoğalan
süslü kuyruklu yalan!

en güzel kim(di) sence
tüm cüz özneler içinde?
en berk ve yeğin kim?
gafletle unutulan gerçek!

üzgünüm biz adına!
cevapları bulana dek
ben'de kalacaksın!

bulduğundaysa
er ya da geç biz'i
nasıl güzelleşecek
su gibi durulacak
dirimde akacaksın

cevap ve sır
tüm yalınlığıyla
görünecek
arısu misali
içre ayna'da

gerçekten
dilediğinde
unutma!..

**Meryem Küçük**

# Sevmeyi Buyurmuş Gözlerin

İçimdesin! Seni Duyuyorum
Belki acıdan
belki aşktan yola vuruldum
Bir enkaz yığınıyım kağıttan
Rüzgâr yanan esse doğrulacağım
Hiç görmediğim kent fotoğraflarında
çığlık çığlığa bir çoğalıp bir azalırken
Ruhumda telaşlı kalabalıklar kaldı

Çok dişli çarklarından geçerken
Sözcükleri allayıp pullayamadım
Gün batımından kızıl gök koydum kadehime
Ayrılık lisanı keder üretirmiş aşk adında
Katran karası gözlerinin boşluğundan akıyorum
Tutuklandım hasretin zincirleri bileklerimde

Oysa özgürlüğüsün ihlal edilmiş tüm dillerin
tanığısın açılmamış gizli gömütlerin
Alnındaki oluklarında akarken matem yazıtları
Ve taşarken sonsuzluğa nehirler
Uçurum içre gördüm ki
Karanlıktır ay'ın şarabı
Resmetmeli bir kayaya
Bir kaç yüz yıl ötesini
Kağıdın ve günün üzerine
Yarından söz etmeli -yarın olmalı
Gün batıyor artık yaprak yaprak yanarak
Sevdadanda öte bir yerdeyim
İçimdesin! Seni duyuyorum
Gözlerin sevmeyi buyurmuş

## Zemfira Məhərrəmli

# On İki Yaşın Sevinci (Hekayə)

Qonşu məhəllədəki yataqxanada neçə ildir ki, qaçqınlar yaşayır. Bət-bənizi qaçmış, çirkli eyvanları, sınıq-salxaq qapı-pəncərələri ilə gözümüzü yağır edən, Birinci Qarabağ savaşından ağır miras qalmış bu binada, dünyanın bəlkə ən gözdən-nəzərdən kənar güşəsində gözə dəyən adamların başı daim qeylü-qallıydı. Üzbəüz binada yaşadığımız üçün buraya girib-çıxanların, gündəlik ruzusunu evinə daşıyan, ağır çantalarını çiynindən çıxarıb qırıq-sökük pillələri qaçaraq qalxan uşaqların səs-küyünə çoxdan alışmışdıq.

Bir gün dərs dediyim məktəbdən çıxıb evə gələndə yataqxananın girişinin rəngbərəng lentlərlə, çiçəklərlə bəzədildiyini gördüm. Doğrusu, çox sevindim. Qaçqın-köçkün qonşularımızın bomboz, yeknəsəq həyatına bir istilik, yeni nəfəs qatılacağı içimə xoş hisslər doldurmuşdu. Qarşıma çıxan ağbirçək anadan “Kimin xeyir işidir?” – deyə soruşdum. “Rəna bugün gəlin köçür” cavabını eşitdim. Rənanın nənəsinin çuxura düşmüş gözlərində sevinc işartıları açıq-aşkar duyulurdu:

–Müəllimə, sizi də məclisimizə dəvət edirik, – deyib getdi.

Bu dəvətə görə, əslində qürurlandım. Düşündüm ki, axar-baxarlı yurd yerini, isti ev-eşiyini itirmiş, şəhərin bir küncündə, darısqal yataqxanaya sığınmış bir ailəyə hansısa hədiyyəmlə yardımçı ola bilərəm. Üzügülər, mehriban Rənaya kiçik siniflərdə dərs demişdim, xətri mənə əziz idi. Qızcığaz gözümüzün qabağında böyümüşdü. Bugün isə o, ağ gəlin duvağına bürünüb gəlin köçəcək, bir evin çırağını yandıracaqdı.

Evdə qərar tuta bilmirdim, toy evinə getməyə tələsirdim. Yataqxananın ikinci mərtəbəsinə qalxanda xeyli qonaq-qara ilə, amma nədənsə narahat bir mənzərə ilə qarşılaşdım. Hərə bir tərəfə vurnuxur, nəyisə axtarırdı. İçəri girib Rənanın anası və özü ilə görüşdüm. Onların da təlaş dolu çöhrəsi gözümdən yayınmadı:

–Nə olub, nə baş verib?! – deyə soruşdum.

–Elə bir işə düşmüşük ki, müəllimə, bilmirik, nə edək! Rənanın nişan üzüyü itib. Neçə saatdır ki, hər yeri axtarırıq, tapılmır ki tapılmır.

Qızın anası doluxsunmuş gözlərini yaylığının ucuyla sildi:

– Nişan üzüksüz də gəlin köçər?! Başıma haranın daşını töküm?!

Rənanın isə həyacandan sanki dili tutulmuşdu. Güc-bəla ilə:

–İndi mən nə edim? – deyib köksümə sığındı.

Gətirdiyim xonçanı hələ də əlimdə tutmuşdum. Heç mən də nə edəcəyimi bilmirdim. Rənanı bağrıma basıb yanında oturdum. Başımda yüz fikir dolanırdı: çətin duruma düşən qıza necə kömək edim?

Vaxt keçir, köhnə divar saatının aramsız çaqqıldayan əqrəbləri toya lap az qaldığını yadımıza salırdı. Xeyir işə gələn qohum-əqrəbanın əndişəsi, itiyini axtaranların səs-küyü gərginlik yaradırdı.

Ani olaraq ağlıma bir fikir gəldi. Rənanın anasına:

– Beş-on dəqiqəyə qayıdıram, – deyib pillələri sürətlə endim.

Binaya çatıb, mənzilimə necə qalxdığımı indi güclə xatırlayıram. Bəzəkli incə qutuda saxladığım təzə nişan üzüyünü paltar dolabımdakı mücrüdən götürüb evdən çıxdım.

Əsgərlikdən yenicə qayıtmış oğlum üçün arzu-kamla aldığım nişan üzüyünü əlimdə bərk-bərk tutmuşdum. İti addımlarla gedir, sanki yüyürürdüm. Rəhmətlik anamın “kimsəsizin dərdini həmişə özününkü bil” nəsihətini yaddaşımda çözələyirdim. Qutudakı üzüyü Rənanın barmağına taxanda ağ paltarlı mələyə elə bil dünyanı bağışladılar. Hamı təəccüb içində bir-birinə baxırdı. Qız anasının sevinc və həyəcandan dili söz tutmur, necə təşəkkür edəcəyini bilmirdi.

Elə bu vaxt “Vağzalı”nın gur sədaları ətrafa yayıldı. Oğlan adamı gəlini aparmağa gəlmişdi...

Qız köçürən ananın göz yaşları titrəyən yanağı boyunca süzülürdü. Mən də kövrəlmişdim, sevinc göz yaşlarıma hakim ola bilmirdim.

Bu hadisədən xeyli vaxt ötüb. Amma bu olayı indi də xoş bir duyğutək xatırlayıram. Odlu Qarabağ cəbhələrinin udduğu gənc həyat yoldaşımın surəti gözüm önündən çəkilmir. Atasız böyütdüyüm oğlum az sonra ailə qurarkən uca Yaradanın mənə yox yerdən necə qapılar açdığını, Allahın bu xeyir işə də zamin olduğunu heç vaxt unutmuram.

## Zeynep Keskin

# Güne Dair

Gün olur
Gitmek gerekir
O vakit bir bir sıralanır düşler
Senden geriye.

Gün olur
Bozulur ladesi gözlerimizin
Dün ile ümitli yarınların.

Gün olur
Penceresi açılır
Kafes kuşunun
Beyaz gelinliğini çıkarır kuğular
O vakit yitirir saflığını tüm gerçekler.

Gün olur
Ne nazı geçer
Ne de kadri bilinir
Senden kalan hatıraların.

Gün olur
Daha çok sevmek gerekirse de
Gün olur vazgeçmenin eşiğindedir
Hüzün dolu kalbimiz.

Gün olur
Gün güneş olur
Gün aydınlık
Gün olur sen dolup taşarsın
Kalbimden -Gözlerime
Şayet rastlarsan taştığın yerlerde bu garibe
Bir de selam söyle o
Sen kokan düşlerime.

Gün olur
Çılgınca sevmeler yitirir anlamını
O vakit
Gün olmaz,
Gün dolmaz

## Banu Musayeva

### Sən

Bir cüt kirpiyimlə götürüm səni,
Gözümdən qəlbinə ötürüm səni,
Orda ləl eyləyim, itirum səni,
Tapanı mən olum, axtaranı sən.

Kimsələr duymasın sənin səsini,
İçimə çəkmişəm od nəfəsimi,
Odunla alışsın yansın ürəyim,
Üşüyən mən olum, od alanım sən!

Gözlərin can alır, candan şirinim,
Atadan, anadan, baldan şirinim,
Ömürdən şirinim, dildən şirinim,
Balın mən olum,baltutanım sən!

Alması mən olum,dilimi də sən,
Naxışı mən olum ilməsin də sən,
Baxışı mən olum, göz nurumda sən,
Nuruna boyanım, göz nurum ol sən!

Banu bu sevdanın bağbanı olar,
Əbədi saf eşqin mehmanı olar,
Sevda dünyasının cananı olar,
Baxçanda gül olum,bağbanım ol sən!

## İnci Okumuş

# Göğün ve Kalbin Söylemleri

Hangi kısık ses inletir göğü
Hangi haykırış suskunlaştırır yeryüzünü
Hangi sevda çözer kalbin tutsaklığını
Hangi el tutunur bir diğerine
Şairi anla iki gözüm
Şair anlaşılmadan ölendir
Unutmadan yaşa bunu
Şairi anla iki gözüm

Hangi rüzgâr getirir umudu
Hangi fırtına dindirir acıyı
Hangi yağmur yıkar gözyaşını
Hangi yıldız aydınlatır karanlığı
Şairi anla iki gözüm
Şair yıldızlar kadar yalnızdır
Kalbinde taşı bunu
Şairi anla iki gözüm

Hangi sessizlik dillendirir gerçeği
Hangi gölge saklar sırları
Hangi gökkuşağı renklendirir hüzünleri
Hangi güneş eritir buzları
Şairi anla iki gözüm
Şair hüzünlerde saklıdır
Aklından çıkarma bunu
Şairi anla iki gözüm

Hangi nehir taşır hayalleri
Hangi deniz yutar kederi
Hangi dağ aşar engelleri
Hangi toprak doğurur sevgiyi
Şairi anla iki gözüm
Şair dağlar kadar sabırlıdır
Kalbinde büyüt bunu
Şairi anla iki gözüm

Hangi ses uyandırır hatıraları
Hangi kucaklayış dindirir hasreti
Hangi renk canlandırır anıları
Hangi dokunuş iyileştirir yaraları
Şairi anla iki gözüm
Şair hatıralarda yaşar
Ruhunda hisset bunu
Şairi anla iki gözüm
Hangi kelime kırar zincirleri
Hangi cümle iyileştirir ruhu
Hangi hikâye yaşatır ölümsüzlüğü
Hangi dize ateş yakar kalplerde
Şairi anla iki gözüm
Şair sözcüklerle sözlüdür
Gönlünde taşı bunu
Şairi anla iki gözüm
Şairi anla iki gözüm

## Sündüs Arslan Akça

# Sesin Kaynağı

sesin
bir çığ gibi
al aşağı ediyor çığlıklarımı
Işık hızıyla geçip hatıralarımdan
dört bir yana saçıyor hayal kırıklarımı

sesin
göğün mavisinden çalıp, boyuyor karanlıklarımı
umudun koynunda hesaba çekiyor
aykırılıklarımı

sesin
yola vuruyor bütün yoran
alışkanlıklarımı
iyi geliyor,
kapatıyor
hüzün sızan aralıklarımı

sesin
delişmen gülüşlerimde topluyor bütün aykırılıklarımı
cam kenarı yalnızlığıma sarıyor
ayrılıklarımı

sesin
yaşanmışlığın sağanağı altında
bir bir yüzüme vuruyor
bağlılıklarımı
ki sesime karışan sesinle
arkamda bırakıyorum
ağırlıklarımı

sesin,
ne zaman sesime değse
alıp götürür tüm yorgunluklarımı...

Lütviyyə Əsgərzadə

# Kiçik Dünyanin Böyük Həqiqətləri

Son zamanlar kitab təqdimatı haqqında mətbuatda və saytlarda müxtəlif fikirlər yer alır. Kiminə görə, kitab təqdimatları oxucu kütləsini cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir, "kitab oxumağı ictimailəşdirir" (Ş.Xuduoğlu), kiminə görə isə, "kitab təqdimatları formaca bir-birinə bənzəyir" və ya "klassik təqdimat zamanı yazıçıyla oxucu arasında ünsiyyət yaranır" N.Köçərli), "yazarlar hansısa orijinal bir şəkildə təqdimata yeniliklər qatırlar." (R.Məcid).

Mən də bu fikirdəyəm ki, kitab təqdimatları oxucu kütləsini cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir, "kitab oxumağı ictimailəşdirir", "klassik təqdimat zamanı yazıçıyla oxucu arasında ünsiyyət yaranır", "yazarlar hansısa orijinal bir şəkildə təqdimata yeniliklər qatırlar." Kitab təqdimatı mənim üçün ziyalılarla görüşü və yeni kitab deməkdir. Əməkdar jurnalist, tanınmış publisist və yazıçı Zemfira Məhərrəmlinin "Çox kiçikdir bu dünya ..." kitabının təqdimatı kimi... Nəfis poliqrafiyası ilə göz oxşayan və müəllifin xoş sözlərlə imzaladığı kitab mənim üçün ən gözəl hədiyyə oldu. "Çox kiçikdir bu dünya ..." oxucuların rəğbətini qazanmış müəllifin, sayca on səkkizinci kitabıdır.

"Çox kiçikdir bu dünya ..." kitabın adı xüsusilə, diqqətimi çəkidi, çünki mənim təsəvvürümdə Dünya hər zaman çox böyük məkan olub. Diqqətimi çəkənlərdən biri də müəllifin, kitabdakı povest və hekayələri "həyat hekayələri" adlandırması oldu. Düşünürəm ki, bu kitabı oxumağa həvəsləndirici bir detaldır və mən də bu həvəslə kitabı oxumağa başladım.

Mənim kitab oxuma adətim bir az qəribədir. Ən irihəcmli romanı birdəfəyə oxuyub qurtarmaq istəyirəm, hekayələri isə əksinə. Gəncliyimdə Mopassanın, Balzakın, O.Henrinin, Çexovun hekayələrini də bu şəkildə oxumuşam. Zemfira xanım Məhərrəmlinin də "Çox kiçikdir bu dünya ..." kitabını birdəfəyə deyil, hər gün bir hekayə oxuyaraq bu günlərdə bitirdim. Bir hekayənin bitirib digərinə keçmədən öncə oxuduğum hekayədəki hadisələr və obrazlar haqqında düşündüm. Həm çox bəhrələndim, həm də çox təsirləndim. Hekayələrin bəzisi hamımızın şahidi olduğu, amma münasibət bildirmədiyi, laqeydlik göstərdiyi real həyat hadisələrinin ədəbiyyatda inikasıdır. Yazıçı olmaq da elə bu demək deyilmi? Hamının görmədiyini görmək, hamının görüb susduğuna susmamaq... Duyarlı, həssas ziyalı, vətəndaş olmaq... Yazaraq yanmaq, yanaraq yaşamaq, bir sözlə, əzabla yaşamaqdır, yazıçı olmaq. Hələ bu yazıçı bir qadınsa… Deyirlər ki, bütün dərdlər (Allah dərd göstərməsin!) qadınların ürəyindən keçir. Bəzisi dəyib keçir, bəzisi dəlib keçir. Gənc Zemfira xanımın bu yaşda açıq ürək əməliyyatı keçirməsi müəllifin cəmiyyətdə baş verən hadisələrə verdiyi reaksiyanın nəticəsidir, - deyə düşünürəm.

Həyat hekayələri kimi təsnifləndirilən "Anam niyə gəlmədi?, "On iki yaşın sevinci", "Dünya gör necə dardır", "Sənə yanan varsa", "Nöqtə boyda bir işıq", "Heç kimi qınama", " Yuxunu suya danış", "Ailə sənin məbədindir", "Qiyamətə qalmayan qisas", "Heyva çiçəyi və ötüb keçənlər", "Analıq haqqı", "Kişilik dərsi" və "Oyuncaq" hekayələrindəki cəmiyyət-insan, ailə-mühit, fərd - tale məsələləri təsirli və diqqətçəkicidir. Hər bir hekayə fərqli mövzuları əhatə etsə də, bütövlükdə böyük əhəmiyyət kəsb edir. Birini digərindən ayırmaq istəməsəm də, bir qadın olaraq ən çox məni həyacanlandıran "Sənə yanan varsa", "Anam niyə gəlmədi?, "Ailə sənin məbədindir", "Qiyamətə qalmayan qisas", "Analıq haqqı" hekayələri və buradakı qadın obrazları oldu.

Tarixən dünyada ən gözəl varlıq, ən dəyərli həyat mənbəyi hesab edilmiş, gözəllik və zəriflik rəmzi sayılmış qadın-ana adı uca tutulmuş, bəşəriyyətin inkişafı onun yüksəlişi ilə ölçülmüşdür: "Qadın gülərsə, şu issız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək!" "Ailə kişi üçün bir malikanə, qadın üçün isə bir istehkamdır." Yaşadığımız cəmiyyətdə bunu unudanların, "ailəni özü üçün malikanə" sayanların sayı saymayanlardan azdır. Təəssüf ki, "ailəni özü üçün istehkam" hesab etməyənlər qadınlar də az deyil. Dini inancımızdakı "Cənnət anaların ayaqları altındadır", milli inancımızda "Ana haqqı-Tanrı haqqıdır",

kimi… “Qonşu mənzildə dörd divar arasındakı bitib-tükənməyən ruhu əzab və üzüntülərə, hər gün təkrar olunan işgəncə və söyüşlərə, bir sözlə qapısını fələk vuran”, “kilidi açılmayan”, “dərd, iztirab yuvası” olan mənzildəki yaşananlara biganə qala bilməyən tələbə, artıq özünü saxlaya bilməyib qapını döyür və qorxunc mənzərə ilə üzləşir: “Saçı-başı pırtlaşıq, gözünün suyu burnunun suyuna qarışmış oğlancığaz”, “əlindəki qayışla qarşısında düz çöküb yumağa dönən qadını döyərək, başına-gözünə zərbələr endirən üzütükli eybəcər varlığın dəhşət saçan görkəmi və döşəmədə sürünüb göz yaşı tökən, anasına can atan, burnundan qan süzülən körpə…” Gördüyü mənzərədən dəhşətə gələn gənc tələbə “bu əzazil vücuda sarı sığıyaraq yaxasından yapışır.” Qadını döyərkən qəhrəmana dönən əzazilin qorxudan gözləri böyüyür. Onun, “Sən kimsən”, - sualına tələbə gəncin “Yaramazlığından əl çəkməsən, bundan sonra hər gün qarşında məni görəcəksən”, - sözləri qaranlıqda işıq kimi parlayır. Əzilən, döyülən, təhqir olunan qadının müdafiəsinə qalxan gənc tələbə ailəsinə zülm verən axmaq kişiyə söylədiyi sözlər düşündürücüdür. Eyni zamanda bir mesajdır: “Niyə anlamırsan ki, ailə insanın məbədidir.”

Müəllif, hekayədə iki kişi prototipini qarşı-qarşıya qoyur. Qadına əl qaldıran, təhqir edən də kişidir, onu müdafiə edən də. Burada maraqlı bir nüans ortaya çıxır. Bu necə ola bilir? İstər qadın olsun, istərsə də kişi böyüdüyü, tərbiyə aldığı ailənin güzgüsüdür. “Əzazil”i də dünyaya gətirən və tərbiyə edən anadır, humanist “gənc tələbə”ni də. Hər bir insanın formalaşmasında ailə mühitinin önəmli rolu var. Deyirlər ki, “Oğul atanın yarısı sayılır.” Ana isə bəşəriyyətin gələcəyidir. Almanlarda belə bir məsəl var: “Siz mənə ağıllı və ismətli qadınlar verin, mən sizə gələcəyi bəxş edim.” Doğrudur, ailədən asılı olmayan nüansların olması da istisna deyil. Müəllif, eyni cinsə mənsub olan iki fərqli kişi obrazını qarşılaşdırmaqla bir çox incə mətləblərə toxunur. Bunlardan biri ailə amilidirsə, digəri isə ictimai qınaqdır.

Belə ki hekayədəki hadisələrin bənzəri ilə, döyülən, söyülən, övladlarının önündə mənliyi alçaldılan qadınlarla rastlaşdığımız çox olub, amma reaksiya vermişikmi? Və ya reaksiya verdiyimizdə qınandığımız da az olmayıb: “Ailənin işinə qarışma.”

Peyğəmbərimizin ayaqlarının altını cənnət gördüyü anaya-qadına olan bu münasibət gələcəyimizə, mənəvi dəyərlərimizə hörmətsizlikdir. Qadın müqəddəsdir, qadın anadır, qadın bacıdır, qadın eşqdir. Bunlar gəlişigözəl sözlər deyil. Müəllif də, qadının yerini və dəyərini verməklə yanaşı, ailə münasibətlərinə, ailələrin sevgi və hörmətlə deyil, zorbalıqla idarə edilməsinə qarşıdır. Zemfira xanımın ailəni bütün inanc sistemlərində insanların dini sitayiş üçün istifadə etdiyi məkana - məbədə bənzətməsi təsadüf deyil. Ailənin müqəddəsliyini vurğulayan müəllif, ailənin kişi üçün müqəddəs məkan - məbəd olduğunu və onu qorumağın vacibliyini vurğulayır.

Bir haşiyə çıxaraq bildirim ki, bu sətrləri yaza-yaza illər öncə Almaniyada gördüyüm və heyrətlə izlədiyim (sonralar hörmətlə və böyük bir zövqlə xatırladığım) bir hadisəni xatırladım. İki üz-üzə dayanmış möhtəşəm binanın önündə dayanmışdıq. Bir - birinə parallel olaraq tikilən binaların birinin fasadında kişilər, digərində isə qadın sütun-heykəllər sıralanmışdı. Estetik olaraq da möhtəşəm görünüşə malik olan bu binalar mənim şüuraltında əbədiləşdi. Cəmiyyət qadınlarla kişilərin çiyinlərində bərqərar olur. Ata və ana isə kiçik cəmiyyət olan ailənin sütünudur.

Zemfira xanımın hekayələrinin hər biri çox qiymətlidir və günümüzlə səsləşən mövzulardır. Məsələn, “Sənə yanan varsa...” hekayəsi... Hekayədə yaşananlar günümüzün reallıqları əks etdirilir. Qadınların qadınlar tərəfindən kiçildilməsi, ailələrə yalançı sevgilərlə olunan müdaxilələr, kişilərin vəfasızlığı (bu məsələdə qadınlar da istisna deyil), məbədindəki qadına dəyər verməməsi, xoşbəxtliyi, anlıq xoşbəxtlik eşqiylə səadəti başqa qadınlarda araması kimi məsələlərə ürək ağrısı ilə toxunulur. Müəllif, sadə, ancaq ustalıqla qurduğu süjetlə müəyyən maddi məqsədlərlə, ailəli kişiləri yoldan çıxaran qadınların iç üzlərinin açılmasına nail olur. “Beş-altı ay əvvəl tanış olduğu naz-qəmzəli xanımın yanına tələsən biznesmen” sevgili yolda baş verən qəza nəticəsində yaranan tıxac səbəbiylə gözləmək məcburiyyətində qalır. Köməyə tələsən ağxalatlıları görüncə, həkim – travmatoloq dostunu xatırlayır. “Tıxacda qalmaqdansa dostumla görüşərəm”, -deyə düşünür və dostu ilə görüşmək üçün onun işlədiyi yerə gəlir. “İllərin həsrətlisi kimi qucaq

dava-dərman və təzə paltar alaram. Axı, sabah həm də ad günümdür." Bu aman əlindəki telefon zəng çalır. Telefonun ekranında bu sözlər yazılmışdı: "Anamın zəngi." Telefonu açmasa da telefonu itirən şəxsin anasının zəngləri bir an ara vermir, övladından nigaran qalan ana cavab almaq üçün israrla zəng edirdi. "Axı, telefonu aça bilmərəm, cavab versəm, telefonu mütləq qaytarmalı olacağam", - kimi ziddiyyətli fikirlərlə oğlan birdən öz anasını xatırlayıb qeyri-iradi telefonu açır və cavab verir. Qızından nigaran ananın, "Kimsiniz, qızımın telefonu niyə sizdədir? Neçə saatdır ki, qızımla danışa bilmirəm. Onun başından bir tük əskik olsa sözlərinə oğlan, "Qızınız barəsində heç nə bilmirəm. On dəqiqə öncə bu telefonu xəzəllərin arasından tapmışam", - deyə cavab verir. Oğlan isə ananın təlaş dolu səsini dinləyə-dinləyə sövq-təbii qızın axtarışına çıxmışdı. Sıx çətirli ağacların arasındakı skamyada tənha bir qızın oturduğunu görüncə, ona yaxınlaşıb soruşdu: "Siz telefonunuzu itirmisiz? Sizin "Ayfon"u tapmışam. Alın, ananızla danışın." Qızı ananın görüncə başına gələnləri anladır, sonda isə deyir: "Kaş belə bir qardaşım olaydı, ana..."

Olunan pislik unudulmadığı kimi, yaxşılıq da unudulmur və əvəzsiz qalmır. O etdiyi əməlin mükafatını ertəsi gün alır. Qapı döyülür. Sərxoş ata gözəl geyimli, şux qamətli bir xanımı kandarda görəndə təəccübünü gizlədə bilmir. Qadın gətirdiyi hədiyyələri, pal-paltarı, ərzaq bağlamalarını və zərfin içinə qoyduğu pulu elə dəhlizdəki kiçik masanın üstünə düzüb: "Çox tərbiyəli, ağıllı oğlunuz var, - deyir. Onun yerinə başqası olsaydı, tapdığı bahalı telefonu heç qaytarmaq barədə düşünməzdi. Üstəlik o, hələ oğru-cibgirlərin əlindən qurtulmuş qızımı bu telefonla tapmaqda mənə kömək eləyib. Daha hansını deyim... Kaş mənim də belə bir fərasətli, zirək oğlum olaydı... Hədiyyələr onundur. Bu azyaşlı, saf ürəkli oğlanın yaxşılığını heç vaxt unutmarıq." Qadından oğlunun ünvanına deyilən xoş sözləri, alqışı eşidən ata yerində donub qalmış, evin bir küncündə, çarpayıda yatan xəstə ana yorğan-döşəkdən silkinib ayağa qalxmış, dəhlizə çıxmışdı. Hekayənin 12 yaşlı qəhrəmanı isə dəhlizə açılan qapının arxasında dayanıb ötən günün olayları barədə düşünürdü. Qızına görə dünən sıxıntı keçirən ana ilə də görüşməliydi. Oğlan irəli yeriyib qadınla köhnə tanışlar kimi salamlaşdı, onu içəri dəvət etdi: "Təsadüfə baxın ki, bu gün mənim ad günümdü, on iki yaşım tamam olur. Gəlin, birlikdə qeyd edək!" Beynində qurduğu ad günü etdiyi bir yaxşı əməllə öz=özünə hasil olmuşdu. Deyirlər ki, "Dünya etmə, bulma dünyasıdır." Azyaşlı oğlan etdiyi hərəkətlə özü-özünü ödülləndirmişdi. Dünyanı "Yaxşı əməl, yaxşı söz və yaxşı iş" qurtaracaq", düşüncəsi doğruymuş. Xeyir əməl pis əmələ qalib gəlmək, nəfsi öldürməkdir.12 yaşlı oğlanın etdiyi hərəkət gözəl örnəkdir.

Bütövlükdə, kitabdakı hekayələr: "Heç kimi qınama", "Qisas da qiyamətə qalmır", "Kişilik haqqı", "Heyva çiçəyi və ötüb keçənlər" maraqlı və oxunaqlıdır. "Nöqtə boyda həyat işığı" isə qardaş Türkiyədəki dəhşətli zəlzələ qurbanlarının xatirəsinə həsr edilmişdir. Kitabın "Qarabağ hekayətləri" bölümündə isə savaşın həyatımıza gətirdiyi fəlakətləri inikas etdirən, əsasını vətənpərvərlik, yurdsevərlik təşkil edən nəsr nümunələri yer almışdır. Hekayələrdə Birinci Qarabağ savaşı dönəminə məxsus nəslə vurulmuş psixoloji zərbələr, işğal illərində yaşadığımız ağrı, kədər, mənfur erməni quldurlarının törətdiyi vəhşiliklərlə yanaşı, millətimizin vətən sevgisi, Ali Baş Komandanın rəhbərliyi və müzəffər ordumuzun bir yumruqtək birləşərək böyük zəfərə çatmaq üçün göstərdiyi igidlik, vətən səmalarında dolaşan şəhidlərimizin, qəhrəman qazilərimizin bəxş etdiyi böyük Zəfərimiz çox real və təsirli şəkildə əks olunmuşdur. Çünki 1991-ci ildən mətbuatda hərbi mövzuda çıxış edən, Zemfira Məhərrəmli, dəfələrlə "qaynar" nöqtələrdə olub, Qarabağ müharibəsinin dəhşətləri, torpaqlarımızın bölünməzliyi uğrunda vuruşan oğul və qızlarımızın hünərini əks etdirən silsilə cəbhə reportajları dərc etdirib. Müəllif, yaradıcılığında Vətənin azadlığı uğruna döyüşən "Ağ atlı oğlan"la "Ağ atlı qız"a eyni müstəvidən yanaşıb. Vətən eşqi ilə döyüşə atılan, qəhrəmanlıqları ilə dastan yazan "Ağ atlı qız"larımıza - Nərmin Abbasquliyevanın dastan yazıb, bədii obrazını əbədiləşdirib. "Son görüş və ayrılıq... Əbədi xatirə" hekayəsində yarımçıq taleləri, ayrılıqları böyük kədərlə hekayəsinə mövzu edib. Hekayənin qəhrəmanları Salehlə Gülərin sevgisi ötən illərdə Qarabağda yaşanan və Salehin şəhid olması ilə yarıda qırılan nakam sevgilərin real bədii təsviri, yüzlərlə real hekayənin ədəbiyyatda inikasıdır.

laşıb, bir-birindən hal-əhval tuturlar.” “Biznesmen” həkim dostuna indicə şahidi olduğu yol qəzasından danışır. Sonra isə: - “deyirlər “kişinin başına iş gələr.” Bir qadınla görüşürəm. Bu ağır yol qəzasıyla qarşılaşandan sonra, düşündüm ki, başıma bir iş gəlsə həmin gözəl buna necə yanaşar? Lap elə tutaq ki, belə bir qəzada ayağımı itirsəm, məni özünə yaraşdırarmı? Eşitdiklərinə biganə qalmayan və söylədiklərini dostuna yaraşdırmayan həkim deyir: “İstəyirsən, hər iki qadını sınayaq, fikirlərini öyrənək?” Dostu deyir: - “Necə.” “Səbr elə, biləcəksən, deyən gənc həkim dostunun telefonunu alıb sonuncu nömrəni yığır və səsucaldanın düyməni işə salır: “Xanım, avtomobil qəzasında xəsarət almış gənc bir kişini klinikamıza gətiriblər. Qəzadan əvvəl, sonuncu dəfə telefonda sizinlə danışıb. Vəziyyəti ciddi, kritik idi. Qanqren olmasın deyə, onun hər iki ayağını amputasiya etdik. Gəlib evə apara bilərsiz.”

Elə bu zaman otağa ötkəm, qaba bir səs yayılır: - Nə dediniz, iki ayağı kəsilib? Sonra daha kəskin, ədalı tərzdə: - “Yanlışınız var. İndi onun mənə heç bir aidiyyatı yoxdur? Daha mənə gərək deyil. Gözəlçə arvadını axtarın, ərini çox sevdiyini söyləyirdi. Qoy gəlib axsaq, şikəst ərinə sahib çıxsın, yiyəlik eləsin.” “Bir an öncə görüşünə can atdığı”, “çox müşkülünü asan etdiyi”, ehtiyaclarını ödədiyi qadından eşitdikləri qarşısında sarsılmış, tutduğu əməldən peşiman olmuşdu. Həkim dostu düşündükləri sınağı başa vurmaq üçün bu dəfə də dostunun evinə zəng vurub məlumatı çatdırır. Xəbərdən sarsılaraq hönkürən qadının cavabına heyran qalırlar: “Siz nə danışırsız? Ona canım qurban o indi haradadır? Klinikanızın yerini deyin, lütfən. Kaş heç bu yağmurlu havada eşiyə çıxmayaydı, qəzaya da düşməyəydi. Yaralı canına qurban olum. Nə yaxşı ki, sağdır, İlahi! Hər əziyyətini özüm çəkərəm, gözümdən aralı qoymaram onu…” İncitdiyi, əzab verdiyi, aldatdığı zövcəsinin sözləri onu əsl sevənin kim olduğunu və “əsl xoşbəxtliyin nə olduğunu anlatmışdı…”

“Ailə sənin məbədindir” hekayəsində iki kişi prototipini qarşılaşdıran müəllif, “Sənə yanan varsa” hekayəsində isə iki qadın prototipini qarşılaşdırır. Gecə olmasa, gündüz, qara olmasa ağın dəyəri bilinmədiyi kimi, pis olmasa da yaxşının dəyəri bilinməz. Hekayədə ustalıqla yaxşı ilə pisi qarşılaşdıran müəllif, burada da ailənin, qadının müqəddəsliyinə toxunur. Qarşılaşdırmada məlum olur ki, “görüşünə tələsdiyi gözəl qadın, əslində mənəviyyatsız, meşşan həyat sürən bir qadındır. Nə sevmir, nə də sevgiyə dəyər vermir. “Biznesmen sevgili”yə münasibəti yalnız müəyyən məqsədlər üçündür.

Kitabdakı povest (“Oyuncaq”) və hekayələrdə “On iki yaşın sevinci”, “Dünya gör necə dardır”, “Nöqtə boyda bir işıq”, “Heç kimi qınama”, “ Yuxunu suya danış”, “Heyva çiçəyi və ötüb keçənlər”, “Kişilik dərsi”ndə müəllif, baş verən müxtəlif hadisələrə münasibət bildirir, gələcəyimiz saydığımız gənc nəslə önəmli mesajlar verir. Qeyd edim ki, “Oyuncaq” povestində iki gənc sevənin, Rəsulla Nərgizin arasına girən Səmayə də yüngülxasiyyətli bir qızdır. Rəsulun sevdiyi qızın olduğunu bildiyi halda onları ayırır. Sonda Rəsul onu pak, təmiz duyğularla sevən Nərgizi deyil, Səmayəni seçir və onunla birlikdə yaşamağı seçməklə oxucunu məyus edir.

Zemfira xanımın “On iki yaşın sevinci” hekayəsini xüsusilə, qeyd etmək istəyirəm. Hekayədəki ata obrazı “Ailə sənin məbədindir” hekayəsindəki ata obrazını xatırladır. Cəmiyyətimizdə tez-tez rast gəldiyimiz əyyaş, sərxoş ataların obrazı… “Alkoqol düşkünü olduğu üçün onu işdən çıxarıblar. Əcaib hərəkətləri, kobud davranışı ilə arvadını xəstə edib.” 12 yaşlı oğul, öz-özünə düşünür: “Bu həyat, görəsən, nə vaxt bitəcək?” Çünki evə kefli gələn kişi, hər gecə yaratdığı qalmaqal, dava-dalaşla kiçik yaşlı oğlunu, yüksək qan təzyiqindən əziyyət çəkən arvadını, hətta qonşuları da boğaza yığıb. Heç bir nəsihəti, yalvarışı vecinə almır, hətta ayaq altında diyirlənən boş araq şüşələrinə nifrətlə baxan yeniyetmə oğlunun bu fəryadına da əhəmiyyət vermir. “Ata, nə olar, az iç bu zəhrimarı! Çoxdan mizan-tərəzisi pozulmuş ailənin sözdə başçısı, oğlunun “ata, sabah mənim ad günümdür, istərdim ki, bizim də süfrəmizdə gözəl yeməklər olsun, sinif yoldaşlarımla bu günü qeyd edim”, - deməsinə heç bir reaksiya vermir. Evdən baş götürüb çıxan, başında qarışıq fikirlər dolaşan oğlan məhəllədə yaşıdları ilə qarşılaşsa da, onlara bənd olmayıb yoluna davam edir. Hara gedəcəyini bilməyən parkda xəzəlləri ayağı ilə dağıda-dağıda yürüyən oğlan xəzəllərin altına düşmüş “təptəzə “Ayfon” telefonu tapır. İlk başda sevinir və düşünür: “bu bahalı telefonu satsam, xeyli pulum olar, evimizə çoxlu ərzaq, anama

dava-dərman və təzə paltar alaram. Axı, sabah həm də ad günümdür.” Bu aman əlindəki telefon zəng çalır. Telefonun ekranında bu sözlər yazılmışdı: “Anamın zəngi.” Telefonu açmasa da telefonu itirən şəxsin anasının zəngləri bir an ara vermir, övladından nigaran qalan ana cavab almaq üçün israrla zəng edirdi. “Axı, telefonu aça bilmərəm, cavab versəm, telefonu mütləq qaytarmalı olacağam”, - kimi ziddiyyətli fikirlərlə oğlan birdən öz anasını xatırlayıb qeyri-iradi telefonu açır və cavab verir. Qızından nigaran ananın, “Kimsiniz, qızımın telefonu niyə sizdədir? Neçə saatdır ki, qızımla danışa bilmirəm. Onun başından bir tük əskik olsa sözlərinə oğlan, “Qızınız barəsində heç nə bilmirəm. On dəqiqə öncə bu telefonu xəzəllərin arasından tapmışam”, - deyə cavab verir. Oğlan isə ananın təlaş dolu səsini dinləyə-dinləyə sövq-təbii qızın axtarışına çıxmışdı. Sıx çətirli ağacların arasındakı skamyada tənha bir qızın oturduğunu görüncə, ona yaxınlaşıb soruşdu: “Siz telefonunuzu itirmisiz? Sizin “Ayfon”u tapmışam. Alın, ananızla danışın.” Qızı ananın görüncə başına gələnləri anladır, sonda isə deyir: “Kaş belə bir qardaşım olaydı, ana...”

Olunan pislik unudulmadığı kimi, yaxşılıq da unudulmur və əvəzsiz qalmır. O etdiyi əməlin mükafatını ertəsi gün alır. Qapı döyülür. Sərxoş ata gözəl geyimli, şux qamətli bir xanımı kandarda görəndə təəccübünü gizlədə bilmir. Qadın gətirdiyi hədiyyələri, pal-paltarı, ərzaq bağlamalarını və zərfin içinə qoyduğu pulu elə dəhlizdəki kiçik masanın üstünə düzüb: “Çox tərbiyəli, ağıllı oğlunuz var, - deyir. Onun yerinə başqası olsaydı, tapdığı bahalı telefonu heç qaytarmaq barədə düşünməzdi. Üstəlik o, hələ oğru-cibgirlərin əlindən qurtulmuş qızımı bu telefonla tapmaqda mənə kömək eləyib. Daha hansını deyim... Kaş mənim də belə bir fərasətli, zirək oğlum olaydı... Hədiyyələr onundur. Bu azyaşlı, saf ürəkli oğlanın yaxşılığını heç vaxt unutmarıq.” Qadından oğlunun ünvanına deyilən xoş sözləri, alqışı eşidən ata yerində donub qalmış, evin bir küncündə, çarpayıda yatan xəstə ana yorğan-döşəkdən silkinib ayağa qalxmış, dəhlizə çıxmışdı. Hekayənin 12 yaşlı qəhrəmanı isə dəhlizə açılan qapının arxasında dayanıb ötən günün olayları barədə düşünürdü. Qızına görə dünən sıxıntı keçirən ana ilə də görüşməliydi. Oğlan irəli yeriyib qadınla köhnə tanışlar kimi salamlaşdı, onu içəri dəvət etdi: “Təsadüfə baxın ki, bu gün mənim ad günümdü, on iki yaşım tamam olur. Gəlin, birlikdə qeyd edək!” Beynində qurduğu ad günü etdiyi bir yaxşı əməllə öz=özünə hasil olmuşdu. Deyirlər ki, “Dünya etmə, bulma dünyasıdır.” Azyaşlı oğlan etdiyi hərəkətlə özü-özünü ödülləndirmişdi. Dünyanı “Yaxşı əməl, yaxşı söz və yaxşı iş” qurtaracaq”, düşüncəsi doğruymuş. Xeyir əməl pis əmələ qalib gəlmək, nəfsi öldürməkdir.12 yaşlı oğlanın etdiyi hərəkət gözəl örnəkdir.

Bütövlükdə, kitabdakı hekayələr: “Heç kimi qınama”, “Qisas da qiyamətə qalmır”, “Kişilik haqqı”, “Heyva çiçəyi və ötüb keçənlər” maraqlı və oxunaqlıdır. “Nöqtə boyda həyat işığı” isə qardaş Türkiyədəki dəhşətli zəlzələ qurbanlarının xatirəsinə həsr edilmişdir. Kitabın “Qarabağ hekayətləri” bölümündə isə savaşın həyatımıza gətirdiyi fəlakətləri inikas etdirən, əsasını vətənpərvərlik, yurdsevərlik təşkil edən nəsr nümunələri yer almışdır. Hekayələrdə Birinci Qarabağ savaşı dönəminə məxsus nəslə vurulmuş psixoloji zərbələr, işğal illərində yaşadığımız ağrı, kədər, mənfur erməni quldurlarının törətdiyi vəhşiliklərlə yanaşı, millətimizin vətən sevgisi, Ali Baş Komandanın rəhbərliyi və müzəffər ordumuzun bir yumruqtək birləşərək böyük zəfərə çatmaq üçün göstərdiyi igidlik, vətən səmalarında dolaşan şəhidlərimizin, qəhrəman qazilərimizin bəxş etdiyi böyük Zəfərimiz çox real və təsirli şəkildə əks olunmuşdur. Çünki 1991-ci ildən mətbuatda hərbi mövzuda çıxış edən, Zemfira Məhərrəmli, dəfələrlə “qaynar” nöqtələrdə olub, Qarabağ müharibəsinin dəhşətləri, torpaqlarımızın bölünməzliyi uğrunda vuruşan oğul və qızlarımızın hünərini əks etdirən silsilə cəbhə reportajları dərc etdirib. Müəllif, yaradıcılığında Vətənin azadlığı uğruna döyüşən “Ağ atlı oğlan”la “Ağ atlı qız”a eyni müstəvidən yanaşıb. Vətən eşqi ilə döyüşə atılan, qəhrəmanlıqları ilə dastan yazan “Ağ atlı qız”larımıza - Nərmin Abbasquliyevanın dastan yazıb, bədii obrazını əbədiləşdirib. “Son görüş və ayrılıq... Əbədi xatirə” hekayəsində yarımçıq taleləri, ayrılıqları böyük kədərlə hekayəsinə mövzu edib. Hekayənin qəhrəmanları Salehlə Gülərin sevgisi ötən illərdə Qarabağda yaşanan və Salehin şəhid olması ilə yarıda qırılan nakam sevgilərin real bədii təsviri, yüzlərlə real hekayənin ədəbiyyatda inikasıdır.

Zemfira xanımın “Əbədiyyət nəğməsi”, “Kiçikhəcmli poetik etüdün” qəhrəmanı Qaratel Hacımahmudovadır. Qaratelin obrazı insan şüurunun alt qatında yaşayan yurd, torpaq arxetipi ilə səsləşir. Hələ sağ ikən cəbhədəki rəşadətləri dilə-ağıza düşüb əfsanələşən, son nəfəsinə qədər misilsiz qəhrəmanlıqlar göstərib döyüşən və döyüş meydanında qəhrəmanlıqla həlak olan Qaratelin varlığı və adı torpaq kimi əbədiyyətin simvoluna çevrilir. “Aslanın erkəyi, dişisi olmaz” müstəvisindən yanaşan müəllif, sözüylə, qələmiylə döyüşən “Qarabağın Salatını”, Vətən eşqiylə döyünən ürəyindəki sevdanı içində dəfn edən, könül verdiyinə “Qəbirdə qovuşanlar”dan olan talesiz Rəhiləni, barəsində cəsarət və əbədiyyət nəğməsi bəstələnsə də, bu şərqini heç vaxt eşitməyəcək Qarateli, “Son döyüş”ündə şəhid olduğu torpağa qanıyla sədaqət möhürü vuran cəsur qız Sədaqəti, incə bədənində cüssəsindən daha böyük ruh daşıyan və ömrünün iyirmi birinci payızında xəzan yarpağı kimi doğma torpağa düşən Könülü, oğlu ilə çiyin-çiyinə vuruşan, onu əlləriylə torpağa tapşırıb yenidən cəbhədəki odun-alovun içinə qayıdan cəsur Nurcahan ananı, cəbhədə qardaşlarının yarasını saran, qanadlanmış mələktək cövlan edən Nərminəni, könül verdiyi cəsur Həsənin batalyonunda düşmənlə vuruşan və Vətən dərdiylə Tanrı dərgahına qovuşan Rahilə Qorxmazı da bütövləşdirir, cəsarət, sədaqət, dəyanət və ləyaqət simvolu kimi əbədiləşdirir. Tarixdə “can verib, ad alan”ları əbədiləşdirənlərə eşq olsun!

Belə bir deyim var ki, “Söz uçar, yazı qalar.” Hələ bu söz taleyin məğlub etdiyi insanlar – ziyalılar tərəfindən deyilib və ya yazılıbsa… Yazıçının da yazmaqda məqsədi budur; yazılan əsərin əbədilik qazanması, oxucular tərəfindən oxunması, sevilməsi, ən əsası isə həyat yollarında onlara yol göstərməsi, fənər olub yollarını işıqlandırması…

Zemfira xanımın “Çox kiçikdir bu dünya...” kitabı kitabsevərlərə böyük töhfədir. Əminik ki, oxucular tərəfindən oxunacaq, seviləcək, ən əsası isə onlara həyat yollarında yol göstərəcək, yollarını işıqlandıracaq. Mübarək olsun!

## Sona İntizar

### Anladım Bugün

Məndən qaçdığını anladım bu gün
Mən sənin yolunda gül-çiçək idim
Min dəfə keçsən də mənim yanımdan
Dönüb baxmasaydın, görməyəcəkdin.

Məndən qaçdığını anladım bugün
Mən sənə tamarzı, mən sənə həsrət,
Sənin qəlbin mənə bir özgə qürbət
Mənimsə ürəyim gülüstan, cənnət

Məndən qaçdığını anladım bugün
Gözümə baxmağa üzün gələrmi?
Aldadıb, oynadıb, qırdığın ürək
Yenidən canlanıb, heç döyünərmi?

Məndən qaçdığını anladım bugün
Sinəmə vurduğun dağ nə idi bəs,
Sən mənim gözümdə yüksəkdən yüksək,
Mən sənin gözündə nə olmuşam bəs?

Məndən qaçdığını anladım bugün
Yoluma çıxmağa cəsarətin yox,
Mən abır eyləyib, susub durmuşam
Səninsə maşaallah gileyi nə çox.

Məndən qaçdığını anladım bugün
Sonanı odlara atıb, getmisən.
Mən bu məhəbbətə bir ayrı sürgün,
Sənsə, əməyimi ayaqlar altda
Əzib, tapdalayıb, qırıb getmisən…

## Nihâl Mirdoğan

# Türk Evladı

Gök yeleli kurdun, dağ sinesinde
“Turan” döşündeki bağır gibisin
Altay’lardan akan “Katun” sesinde
Debisi yüksek bir nehir gibisin

Sen ki; Türk evlâdı,ey Bozkurt soyu !
Oğuzhan, Alparslan ,Tuğrul’un boyu
Kısrağın sütünü dağıtan toyu
Sen ; kımız tadında sihir gibisin

Koca acundaki tadı almışsan
Tepeden tırnağa yer,gök dolmuşsan
Örsü dövüp,kutlu yolu bulmuşsan
Kut alan töre’nle mahir gibisin

Gel beri, tanık ol Bey’ler aşkına
Nalları çatlatan tay’lar aşkına
Dağlara seslenen hey’ler aşkına
Koçak yüreğinle şiir gibisin

Selâmlasın seni Kaptan-ı Derya
Ol ki, Barbaros’un deminde derya
Köpürdükçe sular, boğulsun parya
Leventini bilen bahir gibisin

Eğer ki kâfirin çıkarsa sesi
Azmine fer verir Çalab nefesi
İmân dolu özün paktır kefesi
Sen ki Türk oğlu,sen tahir gibisin

Bağır Sakarya’dan bağır Fırat’tan
Çanakkale’den ders al, doru attan,
Baturdan, efrâttan, erden, erattan
Küffar ordusuna kahır gibisin

Selâmlasın seni kutlu ereğin
“Sabır,azim, zafer”olsun gereğin
Al kanındaki, Atatürk yüreğin
Çarptıkça,Türk’lüğe şehir gibisin
Onbin yıllık, evvel âhir gibisin

## Tamella Şuşalı

# İstərəm

Bu dünyada biz qonağıq,
Dərdə məlhəm söz istərəm,
Həqiqətin aynasında
Haqqı görən göz istərəm.

Davaları, talanları,
Şərə meyil salanları,
Doğruları, yalanları
Ayırd edib çöz istərəm.

Ömür borcdu, həyat sınaq,
Nə əyilək, nə də sınaq,
Qorxutmasın şaxta, sazaq,
Soyuğuna döz istərəm.

Nurun varsa, işıq ələ,
Tut əllərdən, yardım elə,
Səxavətin dönsün selə,
Alnıaçıq gəz istərəm.

Sev Vətəni, sev insanı,
Kimliyini yaxşı tanı,
Sevmək üçün bu cahanı
Ürəyində köz istərəm.

**Eluca Atali**

## Özümə Həsrət

Mən özüm özümə həsrət.
İstəyirəm axtarım, tapım özümü.
Həsrət itsin.
Amma neynəyim ki, zaman imkan vermir, Zaman!
Bu gedişlə inanmıram tapım Məni.
Mən hardayam???
Mən -- hər gün iyirmi dörd saat işləyən zamanın əqrəblərində.
Zamansa, məndən möhkəm-möhkəm tutub fırladır əhatəsində.
Amma, kimsə həsrət deyil mənə.
Mən paralanıb, parçalanıb səpilmişəm özgələrin istəyinə!
İstəklərdən yığılmaq üçün əqrəb qarışıq atılmalıyam saatın çərçivəsindən,
zaman dairəsindən.
Sıçrasam, atılsam, bir addım kənara çıxsam, mən Mənlə görüşə billəm!
Onda mən Mənimlə birləşə billəm!

Fatma Özger Bilgiç

# Kendini Toparla

Kin, öfke taşımak ızdırap ruha
Üç günlük dünyaya aldanma sakın
Bir varız, bir yokuz gidiyoruz ha
Nefsine savaş aç çevrene bakın!

İsmail gibi ol Rabbime güven
Asil olmaz asla kendini öven
Tembel olup yatan, etrafa söven
Uzak dur bunlardan olma sen yakın!

Dertsiz kul olur mu etrafa bir bak
Simsiyah saçlara dolacaktır ak
O dünyada geçmez, mal, mülk, dost yasak
Zarar verenden kaç, sen tavır takın.

Dağılmış tüm dertler evrene bir bir
Dünya denen yaşam bir sınavdır gör
Ne büyük dertler var git hâlini sor
Kendini toparla, sevgiyle dokun.

Karalar bağlayıp kötümser olma
Hüzne gebe kalıp saçını yolma
Mahsum insanların ahını alma
Mahşerde toplanır kul akın akın.

Dünya denen hane diğişir durur
Kimi aynı kalır kimi kudurur
Daim samimi ol Rabbim hep korur
Sevgiye set olan duvarı yıkın!

Özger bu hâline yanar üzülür
Yardım etmek için yürek ezilir
Kader sen doğmadan evel yazılır
Her gün şükre sarıl küfürden sakın!